# MEDİADA XARİCİ DÖVLƏTLƏRLƏ BAĞLI NARRATİVLƏR

İYUN 2023



*“Mediada xarici dövlətlərlə bağlı narrativlər” reportu “Fakt Yoxla” tərəfindən Azərbaycan mediasında İran, Rusiya, Türkiyə və Qərb dövlətləri haqqında dərc olunan narrativləri özündə ehtiva edir. Reportun bu sayı 2023-cü ilin 1 iyun - 30 iyun tarixlərini əhatə edir.*

***Məqsəd.*** *Reportun hazırlanmasında məqsəd ölkənin media mühitində qonşu dövlətlər olan İran, Türkiyə və Rusiya və Qərb dövlətləri ilə bağlı hansı narrativlərin (hekayələrin) dərc edildiyini, dövri olaraq bu hekayələrin sayında və ya məzmununda hansı dəyişikliklərin olduğunu, hansı dövlətlərə qarşı qarayaxma kampaniyalarının aparıldığını ölkə vətəndaşlarına göstərməkdir.*

***Metodologiya.*** *Monitorinq yalnız onlayn resursları əhatə edir. Heç bir televiziya və ya çap mediası monitorinqə daxil edilmir. Siyasətçilərin və qurumların açıqlamaları və ya bəyanatları monitorinqə yalnız o halda daxil edilib ki, onlara verilən başlıqlar yönləndirici olsun. Video formatında olan materiallar monitorinqin əhatə dairəsinə daxil edilməyib. Monitorinq zamanı uyğun media qurumlarının bütün dərc edilən xəbərlər gözdən keçirilib, açar sözlər vasitəsilə axtarışdan istifadə edilməyib. Monitorinqə cəlb edilən media qurumları ölkədə çox oxunma sayına və tərəfliliyinə əsasən seçilmişdir.*

***İyun*** *ayı ərzində monitorinq edilmiş media qurumları aşağıdakılardır:*
*Apa.az, Oxu.az, Musavat.com, Sputnik.az, Demotiya.com, Trend.az, Milli.az, Axar.az*

***Nəticə****. Nəticələrə görə bu ay ərzində monitorinq edilmiş media qurumlarında ən çox yer alan xarici dövlət İrandır. İran ilə bağlı ay ərzində 60 narrativ qeydə alınıb. Ümumilikdə monitorinqin nəticəsində 140 narrativ aşkar edilmişdir:*



## Türkiyə

Bu gün istər regional proseslərdə, istərsə də qlobal miqyaslı hadisələrdə Azərbaycan-Türkiyə tandemi olduqca həlledici söz sahibi kimi özünü bütün sahələr üzrə doğrultmaqdadır. Qlobal aktorlar da çox yaxşı bilirlər ki, bu gün Türk Dünyası Dövlətləri Təşkilatı (TDDT) kimi bir alyansın bu gün formalaşdırılması, onun gücləmdirilməsi, aparıcı təşkilat kimi bir çox bölgələrdə vacib fiqura çevrilməsində Bakı-Ankara dostluğunun rolu həlledicidir. Məhz türk düşmənlərinin ən böyük planı da bu iki qardaş ölkəni bir-birindən pərəm-pərəm salmaq idi. Link (12 iyun 2023)

Dünyanın həsəd apardığı qardaşlıq - Bakı ilə Ankaranın artan gücü hədəfi yaxınlaşdırır. Link (13 iyun 2023)

Bütün düymələrə basıldı - Hər şey Ərdoğanın bir kəlməsindən asılıdır. Link (19 iyun 2023)

Rusiyadakı hərbi çevriliş cəhdindən türk kəşfiyyatının xəbəri olub. Link (26 iyun 2023)

Bakı ilə Ankara birgə hər ötən gün qarşıya qoyulan hədəflərə çox sürətlə yaxınlaşmaqda, onları əldə etməkdədir. Şübhəsiz ki, bunun sirri güclü olmaq, bütün istiqamətlərdə bir-birinə dəstək nümayiş etdirmək və qardaşını yıxılmağa qoymamaqdan keçir. Link (13 iyun 2023)

Nəzərə alsaq ki, bu gün dünyanın əsas güc mərkəzlərindən birinə çevrilən Türkiyədən və regionun, eləcə də Avrasiyanın əsas logistik yollarının, enerji mənbələrinin mərkəzinə çevrilən Azərbaycandan söhbət gedir, o zaman bu səfərin əhəmiyyətinin nə qədər böyük olduğunu və marağın nədən qaynaqlandığını təsəvvür etmək çətin deyil. Link (13 iyun 2023)

Yaxşı olar ki, Ermənistan üzərindən Azərbaycan və Türkiyəyə qarşı düşmənçilik siyasətini quran qüvvələr birdəfəlik anlasınlar ki, indi başqa bir dünya qurulur və bu dünyanın qurulmasında Türk Dövlətlərinin əhəmiyyəti sürətlə artır. Link (14 iyun 2023)

Türkiyənin valyuta ehtiyatları bir həftə ərzində rekord dərəcədə artıb. Link (27 iyun 2023)

Ərdoğan Türkiyəni qlobal gücə çevirir - “Kaspi”nin TƏHLİLİ. Link (4 iyun 2023)

Türkiyədə gündəlik ixracat rekordu qırıldı - FOTO Link (25 iyun 2023)

Təbii ki, Silahlı Qüvvələrimizin peşəkarlıq səviyyəsinin artırılmasında qardaş Türkiyənin özünəməxsus rolu var. Bu gün Azərbaycanı ordusunun maddi-texniki bazasının formalaşdırılmasında Türkiyə müdafiə sənayesinin imkanlarından geniş istifadə edilir. Dünyanın ən güclü orduları sırasında 10-cu, NATO-da isə 2-ci olan Türkiyə Silahlı Qüvvələri ilə birgə çoxsaylı hərbi təlimlər keçirilir, təcrübə mübadiləsi aparılır. Tək bir faktı qeyd etmək kifayətdir. Bu il iki ölkənin ordularının iştirakı ilə 16

hərbi təlimin keçirilməsi planlaşdırılır. Hazırda Azərbaycan Silahlı Qüvvələri Türkiyə ordusunun təcrübəsi və modeli əsasında yenidən qurulur. Link (26 iyun 2023)

Bəzi qüvvələr Ərdoğanın qələbəsinə ona görə mane olmağa çalışırdılar ki, onlar güclü, müstəqil, kimsədən asılı olmayan Türkiyə istəmirlər.
Dünyada ciddi nüfuzu, yeri, xarizması olan liderin – R.T.Ərdoğanın rəhbərlik etdiyi Türkiyəyə isə kimlərsə diqtə edə bilmir. O, hazırda türk dünyasının avtoritetidir, ağsaqqalıdır. Link (9 iyun 2023)

Türkiyədən asılı olan ölkə ODLA OYNAYIR - Quran ilə bağlı ŞOK QƏRAR. Link (13 iyun 2023)

Azərbaycan-Türkiyə İttifaqı dünyaya meydan oxuyur: "Türk əsri" davam edəcək, Qafqazın isə sahibi var. Link (13 iyun 2023)

Rəsmi Ankaranın xarici siyasət hədəflərinə müqavimət göstərməyə çalışan bəzi ölkələr indi tez-tələsik öz mövqelərinə ciddi düzəlişlər edirlər, aparıcı ərəb dövlətləri isə Türkiyə üçün sərmayəçi ölkələrə çevrilir... Türkiyə ABŞ-ın hegemoniyasına hesablanmış təkqütblü dünya sisteminə qarşı çıxır, rəsmi Ankaranın geopolitik seçimi "soyuq savaş" dövrünə yaxınlaşmaqda olan beynəlxalq rəqabət məkanında həlledici faktor hesab olunur… Link (19 iyun 2023)

Azərbaycan-Türkiyə-Gürcüstan formatı regional təhlükəsizliyi gücləndirir – HESABAT. Link (5 iyun 2023)

Türkiyənin qarşısını almalıyıq, qitəni tamam itiririk. Link (18 iyun 2023)

Türkiyə belə bir dahi lideri olduğu üçün xoşbəxtdir. Link (19 iyun 2023)

Türkiyənin valyuta ehtiyatlarında tarixi artım... – Nazir. Link (28 iyun 2023)

Qeyri-neft ixracatımızda Türkiyə Rusiyanı üstələdi. Link (19 iyun 2023)

## İran

İrana gedən azərbaycanlı xəstələri müalicə edən həkimlərin xüsusi xidmət orqanlarının əməkdaşları olması barədə iddialar yayılıb."Qafqazinfo" "MOUZE" teleqram kanalına istinadən xəbər verir ki, yeni həkimlər azərbaycanlı xəstələri "tələyə" salmağa çalışırlar.Buna görə də İrana müalicə üçün gedən azərbaycanlılardan diqqətli olmaları, yeni və tanımadıqları həkimlərlə ünsiyyət qurmamaları xahiş olunur. Link (8 iyun 2023)

İranın "ucuz" və "keyfiyyətli" səhiyyə tələsinə düşənlər. Link (8 iyun 2023)

Səbrimizin "mesaj qutusu" və İransayağı susqunluq. Səbrimizin "mesaj qutusu" dolub və ən azı son bir il ərzində sınırlarımızı və sinirlərimizi tarıma çəkən hadisələrə dolgun bir şəkildə aydınlıq gətirilməsini gözləyirik. Link (14 iyun 2023)

Ən maraqlısı odur ki, Azərbacyanda İran həkimlərini də əvvəlki kimi tərif etmirlər. Əksinə, ordakı yanlış diaqnoz, səhv müalicə və ağır dərmanların təsirindən şikayətlənənlərin sayı artmağa başlayıb. Beləliklə, Azərbaycanda "İran səhiyyəsinin möhtəşəmliyi" ilə bağlı bilərəkdən yaradılan mif getdikcə dağılır. Link (9 iyun 2023)

İran Şərqi Azərbaycanı parçalamaq istəyir. Link (10 iyun 2023)

Rəisinin həyat yoldaşı türkləri düşmən adlandırdı. Link (16 iyun 2023)

Rəisinin xanımı türkə nifrətini açıq etiraf etdi. Link (18 iyun 2023)

İran Almaniyada müxalifləri oğurlayır. Link (21 iyun 2023)

Azərbaycan müstəqillik qazanandan sonra İranın ölkəmizə nüfuz etmək vasitələrindən biri də səhiyyə olub. Tehran illər boyu öz səhiyyəsinin guya yüksək səviyyədə olması haqqında yalançı təsəvvür yaratmağa çalışıb. Təəssüf ki, “keyfiyyətli və ucuz səhiyyə” sisteminə malik olduğunu təlqin edən İranın yalançı reklamına inanan insanlarımız kifayət qədərdir. Bu cür ucuz təbliğatın qurbanı olan vətəndaşlarımız şəfa tapmaq üçün İrana gedir, nəticədə özlərini təhlükəyə atırlar. Link (8 iyun 2023)

İranın regionda sabitliyə qarşı təhdidi-Sülh sazişi molla rejimini niyə narahat edir? Link (1 iyun 2023)

Azərbaycan vətəndaşları üçün TƏHLÜKƏ - İran yeni məkrli metodlara əl atır. Link (2 iyun 2023)

İran faktiki olaraq hazırda dünyaya meydan oxuyur, yaxud belə bir görüntü yaradır. Qərbin, Avropanın sanksiyaları, habelə iqtisadi-sosial problemlər içərisində çabalayan İran eyni zamanda İsrailə, ABŞ-a, o cümlədən qonşularına, xüsusilə Azərbaycana qarşı mənasız və xain təhdidlər yağdırır. Link (8 iyun 2023)

İran səhiyyəsinin ümidinə qalan vətəndaşlarımızın başına gətirilən DƏHŞƏT. Link (8 iyun 2023)

İrandan daha bir məkrli addım - ŞOK SƏS YAZISI. Link (8 iyun 2023)

Bunu etməyin, molla rejiminin girovu olarsınız! - İrana səfərdən imtina üçün növbəti ŞOK əsas. Link (10 iyun 2023)

İranın daxili işlər nazirindən Azərbaycana qarşı TƏHDİD. Link (11 iyun 2023)

Türkü özünə əbədi düşmən sayan İran... Azərbaycanla layihələrin dərdini çəkir? Link (20 iyun 2023)

Suçsuz bir adama böhtan atmaq, onu şərləyib zindana salmaq islamda çox böyük günahlardan sayılır. İman adamları bilir, bunun nəinki dünyada, Axirətdə də ağır bədəli var. Şəriətə görə, azı 4 şahid lazımdır ki, insanı nədəsə ittiham edəsən.Bəs özünü “islam respublikası” sayan İranda azərbaycanlı gənc Fərid Səfərliyə qarşı “casusluq” tamaşasının quruluşçu “rejissorları” və ssenaristləri bunun

fərqindədirlərmi? Saxta ittiham əsasında bir şəxs haqqında necə cinayət işi açmaq, sonra da heç nə olmayıbmış kimi gedib dəstəmaz alıb namaz qılmaq olar?. Link (25 iyun 2023)

İran rejimi uşaqları da istismar edir: Rəqəmlər qorxudur. Link (28 iyun 2023)

İran rejimi üçün beynəlxalq qanun və qaydalar, insanlıq və dinc yanaşı qonşuluq münasibətləri yoxdur. Bu hakimiyyət daha çox terrorçuların prinsipi ilə fəaliyyət göstərir. Link (2 iyun 2023)

İran guya öz aləmində Azərbaycanın təhlükəsizlik orqanlarının molla rejiminin ölkədəki şəbəkəsinə qarşı keçirdiyi əməliyyatlara cavab verir, Bakı-Tehran gərginliyini fürsət bilərək xarici ölkə vətəndaşını saxlayır və onun İrana girişini casus əməli kimi tövsif etməyə çalışır. Link (2 iyun 2023)

İranın mövqeyi, onsuz da, bəllidir, o, Cənubi Qafqazda da ikinci “Hizbullah” yaratmaq sevdasından vaz keçməyib, üstəgəl, nə qədər qəribə səslənsə də, PKK ilə əməkdaşlıq modeli qurmağa da səy göstərir, hərçənd onların da bir-birindən xoşu gəlmir. Link (5 iyun 2023)

İranın “ucuz” və “keyfiyyətli” səhiyyə tələsinə düşənlər. Link (8 iyun 2023)

İsrail molla rejimini küncə sıxır. Link (17 iyun 2023_)

İran vətəndaşlarına sadə vizanın çətinləşdirilməsi: Tehranın qazandığı etimadsızlıq. Link (21 iyun 2023)

İran dünyada gender bərabərsizliyi indeksində ilk beşlikdə. Link (22 iyun 2023)

İran rejimi uşaqları da istismar edir: Rəqəmlər qorxudur. Link (28 iyun 2023)

Almaniyanın Yena Universitetinin tələbəsi, Azərbaycan vətəndaşı Fərid Səfərlinin molla rejimi tərəfindən oğurlanması, onun Tehranda itkin düşdüyü barədə məlumatlar ictimailəşdirildikdən xeyli sonra, sözügedən gəncin casusluq fəaliyyətində ittiham olunması 1979-cu ildən etibarən qanlı mahiyyətini din, məzhəb pərdəsi arxasında gizlətməyə çalışan ultramillətçi, cinayətkar Tehran hakimiyyətinin “klassik” üslubunu əks etdirir. Link (2 iyun 2023)

Qafqazda sülh sizin kabusunuzdur - İran vətəndaşlarından rəsmi Tehrana reaksiya. Link (5 iyun 2023)

İran Azərbaycana qarşı düşmənçiliyini gizlədə bilmir - Tehranın məqsədi nədir? Link (5 iyun 2023)

İran Azərbaycana qarşı düşmənçilik siyasətini qaldığı yerdən davam etdirir. İranda azərbaycanlı tələbə Fərid Səfərlinin casusluq ittihamı ilə həbs olunması molla rejiminin əsl mahiyyətini açıq nümayiş etdirir. Link (5 iyun 2023)

Zəngəzur dəhlizi ilə bağlı işlər sürətlənir - İranın təzyiqləri nəticəsiz qalacaq. Link (6 iyun 2023)

İranın daxili və xarici siyasətindəki anlaşmazlıqlar və qarşıdurmalar günü-gündən artır. Bu gün daxildə siyasi və cəmiyyət nöqteyi nəzərdən çox ciddi fikir ayrılıqları ilə qarşı-qarşıya qalan İran rejimi nüvə silahı əldə etmək istiqamətindəki fəaliyyətini da bir an olsun arxa planda saxlamaq fikrində deyil. Link (7 iyun 2023)

İran iqtisadiyyatının müxtəlif sahələrində ciddi şəkildə böhranlar davam edir. Bu böhranlardan biri də təbii ki, bu rejimin indiyədək həll edə bilmədiyi benzin böhranıdır. Link (8 iyun 2023)

Son vaxtlar İranın nüvə proqramı dünya mediasında aktuallığını qoruyan əsas məsələlərdən biridir. İranın nüvə proqramı sözün əsl mənasında bu ölkəni, daha dəqiq desək rejimi başağrısına salan problemlərdən biridir. İran dünyaya nüvə proqramının “sülhməramlı” “dinc məqsədli” olduğunu car çəkir. Link (10 iyun 2023)

Cənubi Azərbaycan Milli Oyanış Hərəkatının ABŞ-da mühacirətdə yaşayan lideri doktor Mahmudəli Çöhrəqani Trend-ə müsahibəsində molla rejiminin yan üstə qoyduğu İran iqtisadiyyatı və "nüvə proqramı" mövzusunda ona ünvanlanan sualları cavablandırıb. Link (10 iyun 2023)

Laçın postunda düyün salmaq istəyirlər - İrandan Fransaya qədər uzanan iz. Link (16 iyun 2023)

İranın Zəngəzur qorxusunun ƏSL SƏBƏBİ - Rejimi bu qədər nə narahat edir? Link (17 iyun 2023)

Fransanın və İranın da bölgədəki situasiyanı ifrat gərginlik həddinə çatdırmaq istəyi ilə destruktiv fəaliyyətlərini davam etdirməsi vəziyyəti asanlaşdıran məqamlar deyil. Link (17 iyun 2023)

Məhz bugün Ermənistanın bu destruktiv yanaşması, xüsusilə də Rusiyanın vasitəçiliyi ilə əldə olunan üçtərəfli razılaşmaları heçə endirmək istiqamətində atılan addımların arxasında İran, Rusiya izini açıq görmək mümkündür. Link (19 iyun 2023)

Onsuz da bu istiqamətdə Ermənistanın hərbiləşdirilməsinə Fransa və İranın nümayiş etdirdiyi canfəşanlıq göz önündədir. Ermənistan şərtləri qəbul etdiyini desə də, son günlər yekun sülh müqaviləsindən yayınmağa çalışması bir daha bölgədə gərginliyin yenidən pik həddə çatacağı ehtimallarlının da yüksək olduğundan xəbər verir. Link (22 iyun 2023)

İran bir tərəfdən ABŞ və Qərb ölkələri tərəfindən tətbiq olunan sanksiyalardan əziyyət çəkdiyini və sanksiyaların ləğv edilməsini istəyir, digər tərəfdən nüvə proqramında öz mövqeyindən qəti şəkildə çəkilmək niyyətində deyil. Link (22 iyun 2023)

Dövlət başçısı hazırda Ermənistan başda olmaqla, onun üzərindən Azərbaycana qarşı soyuq savaş elan edən Fransa, İran kimi ermənipərəst dövlətlərə də növbəti dəfə bəyan etmiş oldu ki, əgər Azərbaycanın ərazi bütövlüyünü tanıyırsınızsa,

Qarabağın Azərbaycanın legitim ərazisi olması ilə bağlı fikilərinizə sadiqsinizsə, niyə o zaman bölgədəki erməni separatçılarını silahlandırmağa, onlara hər cür yardım etməyə, revanş cəhdlərini yenidən alovlandırmaq istiqamətindəki addımlara ara vermirsiniz? Link (23 iyun 2023)

İranda TÜRKOFOBİYA PİK HƏDDƏ. Link (1 iyun 2023)

Almaniyanın Yena Universitetinin tələbəsi, Azərbaycan vətəndaşı Fərid Səfərlinin molla rejimi tərəfindən oğurlanması, onun Tehranda itkin düşdüyü barədə məlumatlar ictimailəşdirildikdən xeyli sonra, sözügedən gəncin casusluq fəaliyyətində ittiham olunması 1979-cu ildən etibarən qanlı mahiyyətini din, məzhəb pərdəsi arxasında gizlətməyə çalışan ultramillətçi, cinayətkar Tehran hakimiyyətinin "klassik" üslubunu əks etdirir. Link (2 iyun 2023)

İran Azərbaycana qarşı düşmənçilik siyasətini qaldığı yerdən davam etdirir. İranda azərbaycanlı tələbə Fərid Səfərlinin casusluq ittihamı ilə həbs olunması molla rejiminin əsl mahiyyətini açıq nümayiş etdirir. Link (5 iyun 2023)

İranda göstəriş: “Bakı Respublikası” yazın" - FOTO. Link (6 iyun 2023)

Zəngəzur dəhlizi ilə bağlı işlər sürətlənir - İranın təzyiqləri nəticəsiz qalacaq. Link (6 iyun 2023)

İranda daxili siyasi gərginlik yaşanır. Yenə də gərginliyin mənbəyi molla rejimində təmsil olunmuş keçmiş rəhbər şəxslərdir. Ölkənin əbədi problemi kimi göstərilən "islahatçı-mötədillər" gərginliyi belə getsə rejimin sonunu yaxınlaşdıracaq. Link (8 iyun 2023)

İran öz düşmənlik siyasətinə davam etməkdə israrlıdır - Deputat Link (8 iyun 2023)

Milli.Az APA-ya istinadən bildirir ki, Azərbaycan müstəqillik qazanandan sonra İranın ölkəmizə nüfuz etmək vasitələrindən biri də səhiyyə olub. Tehran illər boyu öz səhiyyəsinin guya yüksək səviyyədə olması haqqında yalançı təsəvvür yaratmağa çalışıb. Təəssüf ki, "keyfiyyətli və ucuz səhiyyə" sisteminə malik olduğunu təlqin edən İranın yalançı reklamına inanan insanlarımız kifayət qədərdir. Bu cür ucuz təbliğatın qurbanı olan vətəndaşlarımız şəfa tapmaq üçün İrana gedir, nəticədə özlərini təhlükəyə atırlar. Link (8 iyun 2023)

İran iqtisadiyyatının müxtəlif sahələrində ciddi şəkildə böhranlar davam edir. Bu böhranlardan biri də təbii ki, bu rejimin indiyədək həll edə bilmədiyi benzin böhranıdır. Link (8 iyun 2023)

İran Şərqi Azərbaycanı parçalamaq istəyir. Link (10 iyun 2023)

Amma Rəcəb Tayyib Ərdoğanın Zəngəzur dəhlizinin açılması ilə bağlı verdiyi müsbət siqnalları və onun ardından Naxçıvanla Azərbaycanın quru əlaqəsinin yaranmasına mane olan tərəfin məhz Tehran rejimi olduğunu elan etməsindən sonra bu təxribatların intensiv hal alması, Laçın postunun "vurulması" məsələsində İran izini də istisna etmir. Link (16 iyun 2023)

Tehran və İrəvanı türklərə qarşı siyasət birləşdirir. Link (17 iyun 2023)

Məhz bugün Ermənistanın bu destruktiv yanaşması, xüsusilə də Rusiyanın vasitəçiliyi ilə əldə olunan üçtərəfli razılaşmaları heçə endirmək istiqamətində atılan addımların arxasında İran, Rusiya izini açıq görmək mümkündür. Link (19 iyun 2023)

İran və Ermənistanın casus şəbəkəsini ifşa edərək zərərsizləşdirmək qalib ölkə üçün, onun təhlükəsizlik orqanları üçün təkcə missiya deyil. Link (20 iyun 2023)

Bu il İran dünyada gender bərabərsizliyi indeksində ilk beşlikdədir. Link (22 iyun 2023)

Dövlət başçısı hazırda Ermənistan başda olmaqla, onun üzərindən Azərbaycana qarşı soyuq savaş elan edən Fransa, İran kimi ermənipərəst dövlətlərə də növbəti dəfə bəyan etmiş oldu ki, əgər Azərbaycanın ərazi bütövlüyünü tanıyırsınızsa, Qarabağın Azərbaycanın legitim ərazisi olması ilə bağlı fikilərinizə sadiqsinizsə, niyə o zaman bölgədəki erməni separatçılarını silahlandırmağa, onlara hər cür yardım etməyə, revanş cəhdlərini yenidən alovlandırmaq istiqamətindəki addımlara ara vermirsiniz? Link (23 iyun 2023)

İran rejimi uşaqları da istismar edir. Link (28 iyun 2023)

## Rusiya

Qiymətlər aşağı, keyfiyyət yüksək: MDB-də yeni sazişin imzalanması nəyə gətirib çıxaracaq?Ekspertlərin fikrincə, Birlik ölkələrinin sakinləri daha ucuz qiymətə daha keyfiyyətli xidmətlər ala biləcəklər. Link (14 iyun 2023)

Rusiyanın "Kornet" tank əleyhinə raket kompleksi 20 ildən artıqdır ki, Qərb tanklarını uğurla məhv edir. Link (19 iyun 2023)

Mavi yanacağın qiyməti yenidən qalxıb - min kubmetr üçün 500 dollardan çox. Səbəb isə istilər səbəbindən enerji sərfiyyatının kəskin artmasıdır. Üstəlik gözlənilməz xəbər: qitənin ən böyük qaz yatağı olan Qroningen nəhayət bağlanıb. Yüzlərlə Avropa müəssisəsi hələ də işləmir, o cümlədən anti-Rusiya sanksiyalarına görə. Köhnə Dünyada sənayesizləşdirmədən danışmağa başlayıblar. Link (23 iyun 2023)

Statistika Rusiya iqtisadiyyatının yeni reallıqlara uyğunlaşdığını göstərir. Link (23 iyun 2023)

Legion "qüdrətli Rusiya" mifini darmadağın edir. Link (5 iyun 2023)

Rusiya sülhməramlıları ermənilərin hərbi daşımalarını müşayiət edir - VİDEO. Link (9 iyun 2023)

Elə isə hərbçimizə güllə açan erməni caninin qulağına "atəş aç" əmrini kim pıçıldamışdı, bu, çox maraqlıdır? Adətən, nəzərlər Rusiyaya yönəlir. Sözsüz, bu dəfə də istisna deyil. Rus hərbçilərin Qarabağdakı erməni quldurlarının karvanlarına

sarvanlıq etməsi adi hal alıb. Link (16 iyun 2023)

Kremldə savaş qızışır - Putin hakimiyyətini itirir. Link (16 iyun 2023)

Rusiya dünyanı şantaj edir. Link (21 iyun 2023)

Bu, Rusiya ordusunun kövrəkliyini üzə çıxardı. Link (26 iyun 2023)

Rusiya sülhməramlıları və Qırmızı Xaç Azərbaycana TƏXRİBAT hazırlayır? Link (30 iyun 2023)

Paşinyan 44 günlük müharibə vaxtı "Bəzi silahların istifadəsi bizim ixtiyarımızda deyildi" deməklə bir növ yenidən Rusiyanı ittiham etməyə başladı. Ermənistan baş naziri beləcə, həm Ermənistan daxilində, həm də Azərbaycanda Rusiyaya qarşı haqlı aqressiyanı daha da qızışdırmaq məqsədi güdür. Çünkü hər kəsə bəlli idi ki, müharibə vaxtı Ermənistana silahların böyük əksəriyyəti məhz Rusiyadan ötürüldü. Bunu Rusiya özü də inkar etmədi. Paşinyan belə bir açıqlama ilə demək istədi ki, müharibə vaxtı Azərbaycana qarşı istifadə olunan bir çox ağır silahları, ballistik raketləri məhz Rusiya özü Azərbaycana qarşı istifadə etdi, burada bizim rolumuz olmadı. Link (28 iyun 2023)

Qarabağda terror fəaliyyətinin fəallaşmasının Vaşinqtonda keçiriləcək növbəti danışıqlar raundu ilə birbaşa bağlı olduğuna dair şübhə yoxdur. Bu təxtibatın rusiyalı sülhməramlıların təşfiqi ilə baş verdiyi də istisna deyil. Hər halda sözügedən qanunsuz birləşmələrinin sülhməramlıların tam nəzarəti altında olması bunu deməyə əsas verir. Link (28 iyun 2023)

Sülhməramlılar Qarabağda separatçıların qanunsuz hərbi daşımalarına şərait yaradırlar. Link (2 iyun 2023)

Separatçılar sülhməramlıların gözü qarşısında intensiv hərbi təlimlər keçirirlər. Link (2 iyun 2023)

Qarabağdakı separatçılar sülhməramlıların gözü qarşısında təlim keçirlər. Link (3 iyun 2023)

Rusiya-"Hizbullah": Yaxın Şərqdən Cənubi Qafqaza uzanan bəla. Link (5 iyun 2023)

Qarabağda Rusiya sülhməramlıları erməni terrorçuların hərbi daşımalarını müşayiət edirlər. Link (9 iyun 2023)

Rusiya sülhməramlıları ermənilərin qanunsuz hərbi daşımalarını müşayiət edirlər. Link (13 iyun 2023)

Ancaq Vardanyan daha çox Rusiyanın strateji layihəsidir, Moskvanın regional gündəliyi üzrə təlimatlarını icra edən şəxsdir, görünür ki, bu fəaliyyət sferası Qarabağdan Ukraynaya qədər geniş arealı əhatə edir. Link (20 iyun 2023)

Rusiya sülhməramlıları növbəti dəfə erməni separatçıları himayə edirlər. Link (23 iyun 2023)

BMT Rusiyanı uşaq ölümlərində ittiham edib - VİDEO. Link (24 iyun 2023)

Rusiya sülhməramlılarla bağlı Azərbaycana müraciət etdi: Rədd cavabı aldı. Yəni əgər Rusiya tərəfi Azərbaycanda müvəqqəti yerləşdirilmiş sülhməramlı kontingentini təchiz etmək istəyirsə, bunu Ermənistandan deyil, yalnız Azərbaycan ərazisindən keçməklə etməlidir. Link (28 iyun 2023)

TƏCİLİ! Putin strateji UĞURSUZLUĞA düçar oldu - Rusiya gücünü və təsirini itirir. Link (4 iyun 2023)

Rusiya sülhməramlıları ermənilərin qanunsuz hərbi daşımalarını müşayiət edirlər. Link (!3 iyun 2023)

Rusiya və Fransa Laçın postunda erməni təxribati törətdi: Kreml Bakı və Ağ Evi niyə şantaj edir. Link (15 iyun 2023)

Putinin YALANLARI üzə çıxdı - Rusiya ÇALXALANIR. Link (19 iyun 2023)

Rusiyanın çöküşü yaxınlaşır. Link (20 iyun 2023)

Sensasion iddia: Rusiya Qarabağdakı separatçılara yüzlərlə dron verib. Link (20 iyun 2023)

Paşinyanın özünü ifşası, Qarabağdakı 25 minlik ordu və Rusiyanın Xankəndiyə daşıdığı dronlar. Link (21 iyun 2023)

Kreml gizli "əbədi savaş" planını açdı: Rusiya Cənubi Qafqazı girov almağa çalışır. Link (21 iyun 2023)

Rusiya Azərbaycanı və Ermənistanı itirir - Kremlin köhnə "resepti" daha işə yaramır. Link (22 iyun 2023)

Rusiya sülhməramlıları növbəti dəfə erməni separatçıları himayə edirlər. Link (23 iyun 2023)

Artıq aydın olur ki, baş verənlərdə "xarici barmaq" var. Daha dəqiqi, söhbət Rusiyaya bağlı "5-ci kolon" üzvlərinin ölkəni qarışdırmaq, milləti bir-birinə qarşı qoymaq üçün aldığı təlimatlardan gedir. Link (24 iyun 2023)

Rusiya öz sonunu hazırlayır. Link (26 iyun 2023)

Rusiyada hərbi məsrəflər naminə büdcə xərclərinin azaldılması ölkəni fəlakətə sürükləyir . Link (28 iyun 2023)

Moskvadan Türkiyə və Azərbaycan əməkdaşlığına qısqanc münasibət. Link (28 iyun 2023)

F-16-ların verilməsi qərarından sonra istənilən danışıqlar artıq birmənalı və qeyd-şərtsiz istisna olunur, bütün ərazilərin, o cümlədən Krımın hərbi yolla qaytarılması ABŞ başqa olmaqla Qərb tərəfindən dəstəklənir. Bunu bilən və döyüş meydanında heç bir uğur qazana bilməyən Rusiya əlində qalan azsaylı imkanlar çərçivəsində müharibə cinayətləri törədir. Link (6 iyun 2023)

Rusiya dünyanı şantaj edir. Link (21 iyun 2023)

Ermənistanın Baş naziri Nikol Paşinyan 44 günlük müharibənin araşdırılması üzrə komissiyasının iclasında müharibə vaxtı bəzi silahların istifadə hüququnun Ermənistana aid olmadığını deyib. Onda bəs kimə aid olub? Paşinyan bu barədə heç nə deməsə də, söhbətin Rusiyadan getdiyi aydındır. Link (27 iyun 2023)

## Qərb dövlətləri

Son dövrlər “Qrant oyunları”nın yeni mərhələsinin başlandığı müşahidə edilir: Qərb ölkələri və strukturları müxtəlif qrant layihələri elan edir, bu layihələri “tərəfdaş” hesab etdikləri, əslində onların tapşırığını yerinə yetirən təşkilatlara verir və “demokratiya” adı altında siyasi oyunlarını oynayırlar. Link (20 iyun 2023)

Məlumdur ki, Fransa Prezidenti Makronun niyyəti bu “dördlü” formatın işlək mexanizmə çevirmək niyyəti var. Bakı ilə Paris arasında münasibətlərdə son aylar yumşalma müşahidə olunsa da, Fransanın danışıqlara zərbə vuran mövqeyi hələ unudulmayıb. Link (2 iyun 2023)

Qardaş Türkiyəyə seçki ərəfəsində dünyanın müxtəlif gücləri, xüsusən bəzi Qərb təsisatları, mərkəzləri – hansı ki, onlar türk dünyasına, Turan ideyasına qarşıdırlar – bütün istiqamətlər üzrə təzyiqlər, təhdidlər yağdırırdılar, təxribat cəhdləri edirdilər. Bu oyunların bircə məqsədi vardı: Sayın Ərdoğanın növbəti dəfə prezident seçilməsinin qarsısını almaq, buna mane olmaq.
Lakin, gözlədimiz kimi, Ərdoğan bütün əngəl, təxribat cəhdlərini yenərək, halal qələbəsini ikinci turda da əldə etdi. Link (9 iyun 2023)

ABŞ və Avropa Birliyi bundan o qədər də məmnun deyil. Əksinə, Türkiyədə hakimiyyət dəyişikliyi planları qurmaqla, rəsmi Ankaranı nəzarət altına ala biləcəyi situasiyanın yetişməsinə can atırdı. Ancaq ABŞ və Qərb öz istəyinə nail ola bilədi. Və artıq daha güclü Türkiyə faktoru ilə barışmaq məcburiyyətində qalıb. Link (19 iyun 2023)

2018-ci ildə baş verən “məxməri inqilab”dan sonra Ermənistan Qərb üslubunda fəal şəkildə “demokratikləşmə” ilə məşğul olmağa başlayıb. Link (5 iyun 2023)

Paris İrəvanı silahlandırmaqda niyə maraqlıdır? Link (13 iyun 2023)

Ermənistanı silahlandırmağa başlayan Fransa bölgədəki güc nisbətini dəyişməyə, əsas vasitəçi rolunu əldə etməyə və proseslərə təsir imkanlarına yiyələnməyə çalışır. Link (9 iyun 2023)

Köhnələn, zəifləyən və heç nə edə bilməyən BMT ilə nə etməli? Link (14 iyun 2023)

Molla rejimi üçün İrəvanın aqibəti maraqlı deyil. İrana Türkiyə və Azərbaycanın iştirak etdiyi bütün formatları zədələmək lazımdır. İrana bu məsələdə müttəfiq kimi Fransanı göstərə bilərik. Zəngəzur dəhlizi ilə bağlı Azərbaycan və Türkiyənin strategiyasını zədələmək missiyasını üzərinə götürən hər iki ölkə bu məsələdə Ermənistanı "piyada" kimi istifadə etmək fikrindədirlər, nəticə etibarı ilə Ermənistanın bundan sonra hansı hallara düşəcəyindən asılı olmayaraq. Link (19 iyun 2023)

Fransa od içində: mini-diktatorun taxtı yanır. Link (29 iyun 2023)

Tək qalmış təlxəyin kədəri: Makron daşnakları qucaqlayır. Link (30 iyun 2023)

Təhlükəli təlxək erməniləri silahlandırır. Link (9 iyun 2023)

AŞPA Türkiyə əleyhinə qərar verdi - Ankaranın cavabı. Link (28 iyun 2023)

"Fransanın yalançı "söz azadlığı" nağıldan başqa bir şey deyil" Link (29 iyun 2023)

NATO və Avropa İttifaqına üzvlüyə can atmaq ölkəmizə fəlakət gətirəcək. Link (2 iyun 2023)

Qazaxıstan Mərkəzi Asiyada USAID layihələri üçün bazaya çevrildi. Rusiya isə hələ də qış yuxusundadır. Link (14 iyun 2023)

Qərb İsveçin NATO-ya daxil olmasını sürətləndirmək üçün Türkiyəyə təzyiqi artırır. Link (1 iyun 2023)

Qərb ölkələri Rusiyada daxili siyasi sabitliyi pozmağı açıq şəkildə hədəfləyirlər. Link (20 iyun 2023)

Nə olursa olsun, Rusiyanın NMD-si ABŞ və NATO-nun hərbi-texnoloji zəifliyini açıq şəkildə nümayiş etdirir, eyni zamanda Moskvanın bərabər və bölünməz təhlükəsizliyin yeni beynəlxalq sisteminin formalaşdırılmasına dair təklifləri “masa üzərində” qalır. Link (29 iyun 2923)

Lavrov ABŞ-ın hərəkətlərinin məntiqini “üsyançı Rusiyanı məhv etmək” istəyi ilə izah edib. Link (30 iyun 2023)

BAKI 2023